# Qarabağ quruculuq mərkəzinə çevrilir

Vətən müharibəsinin 44 günü ərzində – ötən il sentyabrın 27-dən noyabrın 9-dək rəşadətli Azərbaycan Ordusunun qarşısında duruş gətirə bilməyəcəyini, iflasa məhkum olacağını anlayan düşmən məğlubiyyətini etiraf etmək məcburiyyətində qaldı və bu, noyabrın 10-da Azərbaycan, Rusiya prezidentləri və Ermənistan baş naziri tərəfindən üçtərəfli bəyanatın imzalanması ilə nəticələndi. Beləliklə, 30 ildən artıq davam edən münaqişəyə, torpaqlarımızın işğalına son qoyuldu, Cənubi Qafqaz bölgəsinin gələcək tərəqqisinə yönələn fəaliyyətin yeni formatı şərtləndirildi. Bəyanatın müddəalarına uyğun olaraq, Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların dayandırılması elan edildi. Ötən il dekabrın 1-dək Kəlbəcər, Ağdam və Laçın rayonları mərhələ-mərhələ Azərbaycan Respublikasına qaytarıldı.



Bu gün işğaldan azad edilən ərazilərimizdə erməni vandallarının illərlə törətdikləri vəhşi əməllər hər addımda nəzərə çarpır. Viran qoyulan şəhər və kəndlərimiz, dağıdılan, təhqir edilən məscidlərimiz, Yer üzündən silinən tarix və mədəniyyət abidələrimiz düşmənin nə qədər barbar, vəhşi olduğunu göstərir. Əlbəttə, düşmən bütün dağıntıları məqsədli şəkildə edib. İşğalçı Ermənistan Dağlıq Qarabağda və ətraf rayonlarda tarixi mirasları viran qoymaqla, milli izləri silməklə azərbaycanlıların bu torpaqlardakı mədəni kimliyini itirmək məqsədi güdüb.

Təkcə Azərbaycan xalqına yox, ümumən bəşəriyyətə təhlükə yaradan erməni faşizminin ifşası üçün yerinə yetirilməli vəzifələrə diqqəti yönəldən Prezident İlham Əliyev deyib: “Biz təkcə öz ərazi bütövlüyümüzü bərpa etməmişik, biz erməni faşizmini məhv etmişik. Biz bölgəmizi faşist ideologiyasından tam xilas etməsək də, onun böyük hissəsini məhv etmişik. Buna görə bizim şanlı Qələbəmiz bölgə üçün, dünya üçün çox böyük əhəmiyyət daşıyır... Erməni faşizmi ən qəddar, ən təhlükəli, ən mənfur, ən çirkin ideologiyadır və biz bu ideologiyanı məhv etdik. Hesab edirəm ki, illər keçdikcə bizim bu tarixi xidmətlər dünya tərəfindən daha da dolğun şəkildə dərk ediləcək”.

*(ardı 5-ci səhifədə)*

# Qarabağ quruculuq mərkəzinə çevrilir



(əvvəli 1-ci səhifədə)

Erməni vandallarının xarabazara çevirdikləri tarixi yurdlarımızın bərpası, inkişaf axarına qovuşması, sosial-iqtisadi dirçəlişi indi Azərbaycanın qarşısında duran ən mühüm vəzifədir. Dövlətimizin başçısı hər zaman bütün məsələlərdə olduğu kimi, bu istiqamətdə də aydın planlara, strateji hədəflərə malikdir.

Əzəli yaşayış sahələrimizdə tariximizi, mədəniyyətimizi və iqtisadiyyatımızı yenidən canlandırmaq üçün bu ərazilərə mərhələli şəkildə, sektorlar üzrə investisiya qoyuluşlarının və digər sərmayələrin cəlb edilməsi qarşıya prioritet istiqamət kimi qoyulub.

Prezident İlham Əliyevin 2 fevral 2021-ci il tarixli sərəncamı ilə təsdiqlənən “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də də bütün bunlarla bağlı bir sıra əhəmiyyətli məqamlar diqqət çəkir. Adı çəkilən strategiyada işğaldan azad edilən ərazilərə böyük qayıdışın reallaşdırılması, Qarabağın dirçəlişinə nail olunması vəzifəsi xüsusi yer tutur. Bununla əlaqədar Milli Prioritetlərdə deyilir: “Azərbaycanın ərazi bütövlüyünün təmin olunması xalqımızın çoxəsrlik tarixində möhtəşəm yer tutur. Dövlət sərhədlərini bərpa etməklə Azərbaycan xalqı son bir əsrdə hərbi və diplomatik sahədə ən böyük zəfərə nail oldu. Qələbənin əbədiləşdirilməsi üçün öz doğma torpaqlarından köçkün düşən insanların vətənə qayıdışı təmin olunmalıdır. Bu Böyük Qayıdış vətəndaşlarımızın işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşmasında və bu ərazilərin ölkənin iqtisadi fəaliyyətinə qoşulmasında bir körpü olacaqdır.

Regionda yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizinin bərpa olunması ölkəmizin qlobal bazarlara çıxış imkanlarını artırmaqla yanaşı, işğaldan azad edilmiş ərazilərin inkişafına əhəmiyyətli təkan verəcəkdir”.

“Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də Qarabağın dirçəlişinin reallaşdırılması ilə bağlı, həmçinin bildirilir ki, əvvəlki dövrlərdə olduğu kimi, işğaldan azad edilən ərazilərə qayıdan insanların təhlükəsiz yaşayışı reallaşdırılmalı, bu region ölkənin ən abad guşələrindən birinə çevrilməlidir. Müasir həyatın əsası olan layiqli yaşayışın bərpası üçün bütün sahələrdə quruculuq gerçəkləşdirilməlidir. Bu, stimullar əsasında və dövlət-özəl tərəfdaşlığının inkişafı çərçivəsində həyata keçirilməlidir. Yalnız belə şəraitdə işğaldan azad olunan ərazilərin Azərbaycanın böyük gələcəyinə tam inteqrasiyasını reallaşdırmaq mümkündür.

Bu prioritetin uğurla icrası üçün isə, ilk növbədə, dayanıqlı məskunlaşmanın aparılmasına və iqtisadi fəaliyyətə reinteqrasiyanın həyata keçirilməsinə nail olunmalıdır.

Artıq ölkədə bu istiqamətdə tədbirlərə başlanılıb. İşğaldan azad edilən ərazilərdə mülki idarəetmənin düzgün, çevik və səmərəli şəkildə həyata keçirilməsi məqsədilə dövlətimizin başçısı İlham Əliyevin yanvarın 19-da imzaladığı fərmana əsasən Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri institutu təsis olunub, fevralın 4-də imzaladığı fərmana əsasən isə xüsusi nümayəndəliklər haqqında Əsasnamə təsdiqlənib.

Həmin sənədlərdə xüsusi nümayəndəliklərin statusu, fəaliyyət istiqamətləri, hüquq və vəzifələri müəyyənləşdirilib, onların fəaliyyətinin təşkili məsələləri tənzimlənib, xüsusi nümayəndəliklərə müvafiq inzibati ərazi vahidlərində bir sıra məsələlər, o cümlədən ərazilərin perspektiv inkişafının təmin edilməsi, mülkiyyətin mühafizəsi, dövlət və bələdiyyə əmlakından səmərəli istifadəsi, sahibkarlıq, şəhərsalma, tikinti fəaliyyətinin təşkili, ətraf mühitin qorunması, nəqliyyat və yol infrastrukturunun inkişafı və digər məsələlər həvalə olunub.

Dövlətimizin başçısının 27 yanvar 2021-ci il tarixli sərəncamı ilə Aydın Kərimovun Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi təyin edilməsi də yuxarıda adı çəkilən fərmanın icrası istiqamətində atılan addımlardan biridir.

Ölkə rəhbərinin tapşırığı ilə hazırda işğaldan azad edilən ərazilərdə infrastrukturun qurulması, tikinti, abadlıq işlərinin aparılması, kiçik və orta sahibkarlığın inkişafına dəstək göstərilməsi istiqamətində hazırlıq işləri görülür, yeni layihələr hazırlanır.

Qarabağın bərpası, dirçəldilməsi istiqamətində Prezident İlham Əliyevin tapşırıq, göstəriş və tövsiyələri ilə atılan mühüm addımlar sırasında Qarabağ Dirçəliş Fondunun yaradılması, Füzuli-Şuşa yolunun çəkilməsi, Füzuli aeroportunun təməlinin qoyulması böyük önəm daşıyır.

Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 26-da Rəşad Nəbiyevi nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən yuxarıda vurğulanan məsələr barədə ətraflı danışıb, eyni zamanda, işğaldan azad edilmiş ərazilərdə yaşıl enerji zonasının, günəş və külək enerjisi növlərinin yaradılması üçün hər cür imkanın mövcudluğunu, su resurslarımızın kifayət qədər geniş həcmli olmasını xatırladaraq, bu işlərə xarici tərəfdaşları, investorları cəlb etməyin, habelə yerli şirkətlərə şərait yaratmağın zəruriliyini də vurğulayıb.

Dövlətimizin başçısı çıxışında azad edilmiş torpaqlarda bərpa işlərinin aparılması zamanı mütləq yüksək texnologiyalardan istifadə olunması vacibliyini xatırladıb. Ölkə rəhbəri hazırda minalardan təmizləmə prosesinin getdiyini qeyd edərək, bununla bərabər şəhərsalma layihələrinin hazırlandığını da diqqətə çatdırıb.

Həmçinin, bu iş yekunlaşandan sonra artıq praktiki inşaat işlərinə start veriləcəyini, infrastruktur layihələri ilə yanaşı, nəqliyyat və texnologiyalar sahələrinin də diqqət mərkəzində saxlanılacağını qeyd edib.

Yeri gəlmişkən, Qarabağda quruculuq işlərinin aparılması üçün 2021-ci ilin dövlət büdcəsində 2,2 milyard manat vəsait xərclənməsi nəzərdə tutulub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci ilin yekunlarına həsr olunan videokonfrans şəklində keçirilən müşavirədə dediyi kimi: “Bizim planlarımız böyükdür. Müharibə başa çatıb. Bərpa işləri artıq başlanıb və bu, onu göstərir ki, bizim sözümüzlə əməlimiz arasında bu dəfə də heç bir fərq yoxdur. Biz demişdik ki, torpaqlar işğaldan azad olunandan sonra bu torpaqları tezliklə bərpa edəcəyik. Mən bu yaxınlarda demişdim ki, biz Qarabağ bölgəsində cənnət yaradacağıq və sözümdə dururam. Bizim hamımızdan asılıdır ki, bu sözlər yerinə yetirilsin. Ona görə 2021-ci il bu baxımdan çox əlamətdar olmalıdır. Məhz 2021-ci ildə Azərbaycan xalqı və bütün dünya görəcək ki, bizim niyyətimiz həyatda öz əksini tapır, bizim planlarımız həyatda gerçəkləşir. Keçmiş köçkünlərə tezliklə öz doğma torpaqlarına qayıtmağı arzulayıram. Hər halda Azərbaycan dövləti əlindən gələni edəcək ki, bu gün daha da yaxınlaşsın. Vahid Azərbaycan dövləti bundan sonra uğurla, inamla inkişaf edəcəkdir”.

Bu istiqamətdə bir sıra mühüm qərarlar qəbul edən Prezident İlham Əliyevin 4 yanvar 2021-ci il tarixli fərmanı ilə işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə “Qarabağ Dirçəliş Fondu” yaradılıb. Bu fond Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və yenidən qurulması, habelə dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyi göstərilməsini və sərmayələrin cəlb edilməsini, bu sahədə dövlət-özəl tərəfdaşlığının inkişafını təmin edən, eləcə də ölkə daxilində, habelə ölkə xaricində zəruri təşviqat işlərini həyata keçirən publik hüquqi şəxsdir.

Dövlət başçısının tapşırığına əsasən, işğaldan azad edilmiş ərazilərdə yaşıl enerji zonasının yaradılması məqsədilə bərpaolunan enerji mənbələrindən istifadə ilə bağlı da özəl investisiyaların cəlb olunması üçün investorlarla müzakirələr aparılır. Bunlarla yanaşı, ənənəvi enerji resurslarından elektrik enerjisi istehsalı sahəsinə də özəl investisiyaların cəlb olunması istiqamətində işlər davam etdirilir.

Qarabağın dirçəlişində erməni quldurlarından xilas olunan torpaqların minalardan təmizlənməsi mühüm önəm daşıyır. Azərbaycan Prezidenti İlham Əliyev işğaldan azad olunan ərazilərimizin minalardan təmizlənməsini Qarabağın dirçəldilməsinə başlanan ilk gündən diqqətdə saxlayıb. Dövlətimizin başçısı fevralın 4-də Vüqar Süleymanovu Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən, bu barədə deyib: “Azad edilmiş torpaqlarda minatəmizləmə işləri birinci dərəcəli vəzifədir. Bu vəzifə icra olunmadan hər hansı bir inkişafdan söhbət gedə bilməz. Hətta hazırda yolların, dəmir yolunun çəkilişi ilə bağlı işləri də biz ancaq istehkamçılar o əraziləri minalardan təmizləyəndən sonra görə bilirik. Odur ki, orada istənilən fəallıq, istənilən inkişaf minalardan təmizləmə işindən asılıdır. Ona görə, biz həm sürəti artırmalıyıq, eyni zamanda, minalardan təmizləmə işi elə aparılmalıdır ki, yenə də deyirəm, o işlər başa çatandan sonra hər hansı bir təhlükə olmasın”.

Hazırda Minatəmizləmə Agentliyi minatəmizləmə əməliyyatlarında həm Türkiyə istehsalı olan avadanlığa üstünlük verir, həm də Avropanın aparıcı şirkətlərinin məhsullarından istifadə edir. Qardaş ölkənin minatəmizləyənləri artıq Qarabağda mina və partlamamış hərbi sursatın təmizlənməsi ilə məşğul olur. Rusiya da bu fəaliyyətlərdə iştirak edir.

Prezident İlham Əliyev Qarabağın dirçəlişi ilə bağlı bütün fikirlərində əhalinin işğaldan azad edilən ərazilərə qayıdışının, dayanıqlı məskunlaşma və iqtisadi fəaliyyətə reinteqrasiyanın təmin olunmasının düşünülmüş, planlı şəkildə, ardıcıllıqla, ən yüksək standartlar səviyyəsində həyata keçirilməsinə böyük həssaslıqla yanaşır. Bu baxımdan istehkamçıların fəaliyyətləri yekunlaşandan sonra növbəti mərhələdə işğal nəticəsində vurulan ziyanın qiymətləndirilməsi işinə başlamaq nəzərdə tutulur.

Qeyd edək ki, Prezident İlham Əliyev hələ 44 günlük müharibə zamanı işğal faktına, habelə işğal zamanı törədilən barbarlığa, həmçinin müharibə və insanlıq əleyhinə cinayətlərə görə cinayətkarların lazımi formada cəzasını alacaqlarını, Ermənistan dövlətinin vurulan ziyanın əvəzinin ödənilməsinə məcbur ediləcəyini bildirib. Ona görə də vəhşicəsinə dağıdılmış evlərin bərpasından əvvəl sənədləşdirilməsi, maddi sübut kimi tanınmasının həyata keçirilməsi mühüm vəzifələrdən biri kimi planlaşdırılıb.

Xatırladaq ki, işğaldan azad edilən ərazilərimizdə dağıdılmış infrastrukturun, o cümlədən enerji infrastrukturunun bərpası və yenidən qurulması məqsədilə həyata keçiriləcək irimiqyaslı layihələrdə Dövlət-Sahibkar Tərəfdaşlığının İnkişafı Mərkəzinin (DÖST) mexanizminin tətbiqi imkanlarından da yararlanmaq nəzərdə tutulub. Həmçinin hazırda həmin torpaqlarda biznes qurmaq istəyən sahibkarların biznes layihələrinin Kiçik və Orta Biznesin İnkişafı Agentliyində (KOBİA) baxılması qərara alınıb.

Bütün bunlarla bərabər, Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən hazırda işğaldan azad edilən ərazilərdə əvvəllər mövcud olmuş və tamamilə dağıdılmış enerji güclərinin bərpası istiqamətində müvafiq istiqamətdə işlər aparılır.

İşğaldan azad edilən ərazilərin minalardan təmizlənməsi prosesi başa çatandan sonra kritik yol xətlərinin bərpasına başlanacaq. Bu, yaşayış sahələri arası gediş-gəlişi və digər vacib təminatların təchiz olunmasını asanlaşdıracaq. İçməli su, sanitariya və irriqasiya sistemlərinin yenidən qurulması prosesi isə insanların həyat səviyyəsinin yaxşılaşmasına və sonrakı mərhələdə iqtisadi baxımdan ailə-ev təsərrüfatlarının canlanmasına töhfə verəcək.

İlkin sosial-iqtisadi inkişafın vacibliyi postkonflikt dövrdə insanların mərhələli şəkildə köçürülməsinə və yardım asılılığından qısa zamanda azad olmalarına gətirib çıxarır. Belə halda isə təhsil, səhiyyə və telekommunikasiya obyektlərinin koordinasiyalı bərpası insanların adaptasiya prosesini sürətləndirir. Paralel şəkildə əhalinin məşğulluğunun artırılması məqsədilə kiçik və orta bizneslərin dəstəklənməsi, bilavasitə ev təsərrüfatlarının inkişafına səbəb olacaq təşəbbüslərin artırılması məqsədəuyğun sayılır. Bundan əlavə, iqtisadi canlanmaya töhfə verəcək bank və turizm sektorlarına da xüsusi diqqət göstərilməsi mühüm önəm daşıyır.

*Vaqif BAYRAMOV,*
*“Xalq qəzeti”*